## ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
***yazıçı-publisist,***
***filologiya elmləri doktoru***

### 5. QARALMIŞ TORPAQ, LAL SÜKUT...

...İndi, ürək ağrısı ilə də olsa, Güllücə ziyarətimdən aldığım təəssüratı bölüşürəm.

Kim deyir ki, havanın ətri, qoxusu yoxdur?

Kim deyir ki, torpaq hissiyatsızdır, duymur, danışmır?

Kim nə deyir desin, mən Bakıdan gedəndə, Yevlaxa çatıb üzü Bərdəyə səmt alan kimi, Qarabağın sinəmə yayılan havasının tanış, məlhəm qoxusunu hiss edirəm və sanki ruhən yenidən canlanıram... Bərdə dördyolunu keçib, Hüsənni çinarını adlayıb, Güllücə yoluna düşən kimi, görüşümüzə torpağın da mənim qədər sevindiyini duyuram. Onunla baxışırıq, danışırıq, söhbətləşirik. Bu sözlərimdə, zərrəcə də olsa, qəribəlik yoxdur, ulu babalarımızdan üzü bəri günəşlə, su ilə, torpaqla, dağla, ağacla danışmaq, onların müqəddəsliyini anlamaq, onlara and içmək bizim sınamalarımızdan, inanclarımızdandır. Kim bunu büdpərəstliyə yozmağa cəhd edirsə, səhv edir, biz təbiətin bir parçasıyıq, onu başa düşürük, duyuruq, hiss edirik. Yenə "Yurd yeri" film-tamaşasını yada salaq: əsərin baş qəhrəmanı Mahal da yurdun havasının, torpağının ətrindəki doğmalığı hiss edir, torpaqla danışır, "insan - insan övladı, cəmi insanlar torpaq övladıdı. Yoxsa, hər zülmümüzə dözməz, pisimizi, yaxşımızı sevməyə məhkum olmazdı... Bu nə sirdi, ilahi, adam yaşa dolduqca torpağa mehri-məhəbbəti artır, torpaq sevgisi külli dünya sevgisini üstələyir" - deyir.

Biz bir müddət yurddan, onun torpağından uzaq düşəndə, valideynlərimizdən ötrü darıxdığımız qədər də, yurdumuz üçün, doğulub boya-başa çatdığımız mühit üçün, o yerlərin adamları, gülü-çiçəyi, dərəsi-təpəsi, bağı-bağatı üçün darıxırıq. Bütün bunlar elə-belə məsələlər deyil, insanın ruhən, mənən torpaqla, mühitlə, oranın insanları, adət-ənənələri, təbiəti ilə bağlılığı məsələsidir, doğmalıq məsələsidir. Mahal kişiyə görə, insan da toxum kimidir, nəsil-nəcabət torpaq üstündə kök atır, cücərib boy verdiyi mühitin havasını götürür, ona oxşayır. Vətənimizin hər qarışını sevirik, amma o böyük sevgi ata yurdumuzdan, ata evimizdən başlanır. Bəs niyə "ana vətən" deyirik? Çünki yurdlarımız, əyalətlərimiz, elə biz özümüz vahid bir ananın ciyərparaları kimi, vətənin bətnində törəyib çoxalırıq, ondan güc alıb yaşamaq haqqı qazanırıq. Yurdu atalar salır, qoruyub saxlayır, ana isə böyüdür, yaşadır, tərbiyə verir... Nəticədə keçmişlə bu gün, etnomənəvi mühitlə coğrafi-təbii mühit bu qovuşuqda birbirini tamamlayır, həyatın dövrəliliyini və əbədiliyini təmin edir. Ata yurdunu itirmək bütün nəslin səlnaməsini, bütün nəcabət tarixini itirməkdi elə...

Hə, doğma Qarabağla, Güllücəmlə görüşüm məndə həmişə duyğusal hisslər, düşüncələr oyadıb... Bu dəfə isə, bir başqa cür qarşılandım. Güllü-çiçəkli Güllücə torpağının üzü qaralmışdı, onu boğan pəncələrdən xilas olmuş kimi ağır-ağır nəfəs alır və susurdu. Hər yanda lal, hüznlü bir sükut hökm sürürdü. Yadıma qəmli bir bayatı düşdü:

Əzizinəm, nur dağlar,
Yağsın sənə nur, dağlar,
Mən özüm ağlamazdım,
Görcək məni yurd ağlar!

Təsəvvür edin: dünyaya göz açdığım Güllücə kəndi vaxtilə dörd tərəfdən bulaqları buludlardan su içən qalın bağlarla əhatə olunmuşdu. Bu bağlar kəndin bar-bəhəri, od-ocağı, gəzinti-istirahət guşəsi, həm də yaşıl örpəyiydi... Günümüzün bir hissəsi o bağlarda keçərdi, mer-meyvə yığardıq, mərəçöyüd, göbələk toplayardıq, gül-çiçək dəstəsi bağlayardıq. Ətri adamı məst edən qan bənövşədən qom düzəldib sevimli müəllimlərimizə və xoşumuza gələn qızlara bağışlayardıq. Heç yadımdan çıxmır, qoz ağacına sarmaşmış qara keçiəmcəyi üzümü dərərdik, salxımı, yalan olmasın, bir kilo. Yeyəndə şirinliyindən boğazımız tutulardı, lap Laçının, Kəlbəcərin dağçiçək balından tutulan kimi. Ürək dərmanı yemişən (biz qarellə deyərdik ona) yığardıq, müxtəlif rənglərdə, ətli, dadlı qarellələr. Sarımtıl dağdağan meyvəsinin isə ləzzəti bir başqaydı. Ağ, qara əncirinin, mələs, gülöyşə narlarının, kəpək heyvasının, qozunun da bir ayrı dadı vardı.

Bir dəfə Cinnibala Oqtayla (əslən Yevlax rayonunun Cinni kəndindən olduğu üçün belə çağırardılar onu) Bəy bağında qoz yığırdıq. Bağın qoruqçusu Kor Mustafa gəlib çıxdı. Bizi gördü. Əlinin işarəsi ilə ağacdan düşməyimizi tələb etdi. Aşağı düşdük. Torbalarımızı boşaltmağı və qarışdırıb üç yerə bölməyi tapşırdı. Oqtay qabıqdan çıxartdığımız qozları ovuclayıb üç yerə bölməyə başladı. Mustafa kişi öz qarşısındakı paya baxıb, "Sən yox, qoy o bölsün" - dedi. Bu dəfə mən böldüm və hər kəs payını götürüb getdi. Bağların qoruqçuları da insaflı adamlar idi, açıqlananda da ədaləti unutmazdılar.

Təndirimizə şax, heyvanımıza ot gətirərdik bağlardan. Ov ovladığımız, quş quşladığımız vaxtlar da olurdu o bağlarda. Hankı səmtinə getsəydik, şən mahnılar eşidərdik - Qarabağlı deyildikmi, səsimiz-avazımız o bağlardan pərvazlanardı. Bax, bu sətirləri yazarkən sinif yoldaşım Əli Zeynalovun şirin zəngüləsi canlanlr qulağımda - indi muğam sənətinin ustad sənətkarlarından biri kimi tanınan Əməkdar artist Elnur Zeynalovun atasını deyirəm. Bağlardan o yana üzüm plantasiyaları, taxıl zəmiləri, örüş yerləri, biçənəklər uzanardı. Payızın sərinində, yarpaqlar arasında gizlənib qalan və yarpaqlar seyrəldikcə günəş şüasından bəsdi deyincə içib qızılı rəng alan üzüm giləlarini tapıb yeməkdən doymazdıq. Qışın soyuğunda şaxta vurub "bala döndərmiş" turş nar sümürərdik bəh-bəhlə. Bizə riyaziyyatdan dərs deyən Teyyub müəllim dərsini yaxşı oxumayanlara "Turş nar yeməkdən beynin gedib ey!" - deyə acıqlanardı. Bostan vaxtı bostana, biçin vaxtı zəmilərə yollanardıq, el varından, torpağın nemətindən böyük-kiçik - hamıya pay düşərdi. Rəngbərəng zolaqlı şamama üzüb cibimizdə gəzdirər, ətrini iyləyərdik, sütül buğda sünbüllərini, südlü qarğıdalı qıçalarını odda ütüb isti-isti dişimizə çəkərdik. Kəndin küçələrindən keçəndə bağbaxçadakı bülbüllərin nəğməsi, təndirdən çıxma buğda çörəyinin ətri, çəpər kənarı boy verən güllüklərin, iydə, yasəmən, akasiya çiçəklərinin rayihəsi adamı məst edirdi...

İndi o cah-cəlaldan nəinki heç bir nişanə qalmayıb, qədim yurdun həyat adına hər nəyi vardısa, hamısı dağıdılıb,



məhv ediliib. Evlərinin damını-daşını, taxtasını, dəmirini söküb aparıblar. İnzibati binaları dağıdıblar. Yolların, tarixi abidələrin yerləşdiyi yerlərin, əkin sahələrinin altını üstünə çeviriblər. Yaşıllıq adında hər nə varsa - ağac, gül, çiçək, çəmən vəhşicəsinə od vurub yandırıblar, özü də hər il, dönə-dönə. İnsan qırğınları törətmələri bəs deyilmiş, işğalda saxladıqları əraziləri xarabalığa çevirmələri, infrastrukturunu məhv etmələri bəs deyilmiş, torpağını, təbiətini də ekoloji terrora məruz qoyublar, təbii sərvətlərini qəddarcasına talan ediblər. Məktəbini, uşaq baxçasını, xəstəxanasını viran qoyublar. Buz kimi kəhrizindən, bol sulu artezian quyusundan, balıq tutduğumuz Cındırrı arxından, elə-obaya barbərəkət gətirən İlxıçı çayından da bir əlamət qalmayıb heç. Yezid kimi sularını kəsib qurudublar, yeddibaşlı əjdaha kimi axarını dayandırıb, məcrasını doldurublar. Ermənilik yalnız insanın, insanlığın deyil, həm də təbiətin, yaşıllığın, çayın, bulağın, kəhrizin düşməni deməkk imiş, bilməmişik. Və mən bu qəzəbli sözləri yazarkən uşaq vaxtı oxuduğum qorxulu nağıllardakı bədheybət obrazlarını xatırlayır və onları ermənilərə bənzədirəm - ədəbiyyatdakı surətlərin (istər müsbət, istər mənfi, istərsə də həyata, insanlığa qənim kəsilən bədheybət) - heç biri havadan alınmır və real həyat hadisələrini əks etdirmək, həmin hadisələrin doğurduğu hiss-həyəcanları ifadə etmək məqsədilə yaradılır.

Və məhz həyata, insanlığa qənim kəsilən ermənilər düz otuz il torpağa toxum əvəzinə tank və piyada əleyhinə mina basdırıblar, kübrə əvəzinə mərmi, qurğuşun yedizdiriblər, məhsul-bərəkət əvəzinə ölüm əkib-becəriblər. Güllücə yaxınlığında, qonşu Şurabad kəndinin girəcəyində rastlaşdığımız və bizə yolumuza davam etməyə icazə verməyən bir ANAMA (Azərbaycan Mina Təmizləmə Milli Agentliyi) işçisi bir gündə 30-50 kvadratmetr yeri güclə təmizləyə bildiyini dedi. Bə nədi, rəsmi məlumatlara görə, Ermənistan tərəfindən işğal dövründə Azərbaycanın azad olunmuş ərazilərində 1,5 milyondan çox mina və partlamamış hərbi sursat yerləşdirilib. 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçi mina partlayışları nəticəsində həlak və ya şikəst olub. Hər yana tikanlı məftillər çəkiblər. Hara baxırsan, sıra-sıra səngərlər uzanır. Hara baxırsan top çuxurları, tank xəndəkləri, müşahidə təpələri, yandırılmış maşınlar, partlayıcı qalıqları görürsən. Onlar yurdumuzun xarabalıqlarını da hərbi poliqona çeviriblər - uşaq, qadın, qoca, xəstə, sağlam - fərqi yoxdur - sonacan çalışıblar ki, çox adam qırsınlar, daha çox türkü şikəst eləsinlər. İstər-istəməz lal sükut içində, kol-kosluqdan, uçuq divarlar və daş qalaqları arxasından qəddar erməni məkrinin, erməni vəhşiliyinin, erməni qəsdinin üfunətli qan iyi verən hənirini hiss edirsən...

Başımı qaldırıb Papravənd tərəfə bozarmış dağlara baxıram, hələ də hüznlü görünür mənə. Baş-başa vermiş Qarabağ dağ silsiləsi bir vaxtlar kəndin hüsnünə bir başqa yaraşıq verirdi. Güllücə gündüzlər aranın istisi ilə canlanır, gecələr dağların sərinliyi içində uyuyurdu. O dağlarla kəndimiz arasındakı 15 kilometrlik məsafədə üzüm plantasiyaları salınmışdı, taxıl zəmiləri dalğalanırdı, camaatın, fermanın mal-qarası otlayırdı, indi başdan-başa susuzluqdan yanıb-qovrulmuş, ilan mələyən çöllüyə çevrilmişdir.

Bayaq kəndə gələndə dağılmış yollarda 50-55 yaşında tənha bir kişinin pay-piyada yol getdiyini görüb maşına götürmüşdüm, Güllücədən keçib Papravəndə gedəcəyini bildirmişdi və elə rahat demişdi ki, elə bil beş-on addımlıq yolu qalmışdı. Amma yayın qızmarında, ilan mələyən, mina təhlükəsi təhdid edən çöllərlə təxminən 17 kilometr yol gedəcəkdi, çünki ora onun yurdu idi, Mahal kişi demiş, ata-baba yurdu onu da maqnit kimi özünə çəkirdi. Hiss olunurdu ki, sevincindən ürəyi sinəsinə sığmır. Evinin, ocağının xarabalığına baxıb təsəlli tapacaqdı, düşüncə-xəyalında təzə evinə köçəcək, təsərrüfat yaradacaq, həyət-bacasını gülüstana döndərəcəkdi. Qulağımda Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilmiş "Dədə Qorqud" filminin müdrik qəhrəmanı Dədə Qorqudun dilindən eşitdiyim məşhur kəlamlar səslənir: "Torpağı qorumadınsa, əkib-becərməyə dəyməz, əkib-becərmədinsə, qorumağa dəyməz." Və başımda başqa bir fikir də qanadlanır: "Yox, torpaq adamı torpağı əkib-becərməklə yaşayır, aldığı tarixi dərsdən sonra yerini-yurdunu bir də heç vaxt tərk etməyəcək, torpaqsız yaşamağın mənasız olduğunu o, artıq yaxşı bilir."

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 2-ci səhifədə)*

Güllücə camaatının qəribə adətləri vardı: xeyir-şər məclisləri elliklə yola verilər, məclis sahibi tək, çarəsiz vəziyyətdə buraxılmazdı. Kənddə şadlıq sarayı yox idi, toylar, şənliklər mağarda keçirilərdi. O mağarda qadının, kişinin, uşağın, böyüyün yeri məlum idi, lap "padşahın", "fərraşın" yeri kimi. Heç kəs bu qanunu pozmazdı. Gah muğam, gah da saz-söz məclisləri qurulardı. İmkanlı adamlar hər ikisini gətirtdirərdi. Şəhər şadlıq saraylarındakı kimi hamılıqla ortaya çıxıb atılıb düşməzdilər. İki-iki, üç-üç, yaxşı rəqs edənlər isə tək-tək oynayardılar, yerdə qalanlar da tamaşa edərdilər. Kənddən yaxşı səsi olanlar da məharətlərini göstərərdilər. Məzə çıxaranlar, camaatı güldürənlər də tapılırdı. Bir sözlə, kəndimizin toyları musiqili teatral toylar idi. Hərəsi özlüyündə bir tamaşa, unudulmaz bir xatirə idi.

Yayda zəhmət çəkib təsərrüfatla məşğul olanlar yaylaq istirahətindən kefikök, damağıçağ qayıdanlara pay-püşt verərdilər ki, əkib-becərməyiblər. Kimsə ev tikəndə iməciliklər təşkil edər, onu artıq xərc-xəsarətə düşməyə qoy-

(günü bugün də riyaziyyatdan çətinlik çəkənlər onun yanına gedir), Əli Əhmədov (kimya və riyaziyyat üzrə respublika olimpiadalarının mükafatçısı) kimi istedadlı məktəblilər barmaqla göstərilər, onlarla fəxr edilərdi. Düşünürəm ki, həm də, bu fəxarət duyğuları, elin-obanın ümidini doğrultmaq məsuliyyəti gənclərimizi qanadlandırır, parlaq üfüqlərə səsləyirdi. İndi bizim məktəbin yetirmələri sırasında neçə-neçə görkəmli alim, yazıçı, şair, incəsənət xadimi, çalışdığı sahənin kamil bilicisi kimi ad çıxartmış mütəxəssis var. İndi bizim kəndin Heydər Teyyub oğlu Heydərov kimi ilk generalı var. Azərbaycan mədəniyyətinin tanınmış nümayəndələrindən olan, incəsənət xadimləri arasında yüksək hörmət və nüfuza malik Müşfiq Hətəmovumuz, biliyi, tərbiyəsi, çalışqanlığı ilə o boyda Mingəçeviri "fəth etmiş", şəhər əhalisinin istəklisinə çevrilmiş Oqtay Mustafayevimiz var. Kəndimizin Kərəm Kərəmov kimi elə bir oğlu Almaniyada yaşayıb işləyir ki, hər gün, bəli, hər gün güllücəli dostlarına, qohumlarına zəng vurub hal-əhval tutmasa bağrı çatlayar... Yurd övladlarını sevdiyi kimi, övladları da doğma yurda sədaqətli qalıblar.

zü haqlamaq üzrədir, dedim, çox yaşlaşmaq da bir şey deyil. Dostum dedi: "Heyif deyil, hamı qulluğunda durur." - Axtarsan, dünyanın tək-tək yerində eşidərsən belə cavabı. Kənd ağsaqqallarına, ağbirçəklərinə bu səviyyədə diqqət və hörmət vardı bizdə. Ağsaqqal, ağbirçək nüfuzu dalaşıb-küsüşməyə, ayrılıb-boşanmağa, "qudurğanlıq" edib cızığından çıxmağa imkan verməzdi. Müşkül bir işi yoluna qoymaq üçün el-obada sayılan kişiləri aparar, qabağa verərdilər. Söz gəzdirənə, ara vurana, satqınlıq edənə elliklə pis baxardılar. Neçə il kənddə yaşadım, kiminsə kimdənsə hüquq-mühafizə orqanlarına şikayət etməsi barədə söz-söhbət eşitmədim.

Amma bir dəfə belə danışırdılar ki, qonşu Suma kəndində (bizim kəndlə qonşu kəndlərin milli mental xüsusiyyətləri, mənəvi-əxlaqi dəyərləri eyni idi) iki cavan dalaşır. Səs-küyə milis nəfəri gəlib çıxır. Dalaşanları da, hadisə yerində olan bir ağsaqqalı da götürüb aparırlar şöbəyə və izahat yazdırırlar. Şahid qismində qocaya deyirlər ki, sən də yaz. O isə bu işdən boyun qaçırmaq üçün bildirir ki, yazı yaza bilmir. Deyirlər, yaxşı, sən de biz yazaq. Kişi bir dalaşanlara, bir də milis işçilərinə baxıb

Qardaşımla xarabalıqlar arasından keçə-keçə ata-baba yurdumuzu axtarırıq, amma vurnuxa-vurnuxa qalırıq, tapa bilmirik. Təkrar-təkrar axtarırıq, yer mühəndisi sayağı ölçü-biçi apararaq yerini dəqiqləşdirməyə çalışırıq, sanki daş qalaqları içində iynə axtarırmış kimi axtarırıq, amma istəyimizə nail ola bilmirik ki, bilmirik... Ağıl çaşır, fikir dolaşır, necə yəni, qarış-qarış gəzib-dolaşdığımız kəndimizin "xəritəsini" unutmuşuq? Yox, sadəcə, erməni dozanqurdu kimi bu yerlərin altını üstünə çevirib, büsbütün kəndi tanınmaz hala gətirib. Sanki, kənd yığılıb, kiçilib bir qalaq daşa çevrilib... Bu, ermənilərin işğal siyasətində köhnə metoddur: yaşayış məntəqələri əvvəlcə talan edilir, sonra evlər, əkin sahələri dağıdılır. Onlar bu vəhşi əməllərini davam etdirirlər...

Bir xoş təsadüfdən Mahmud oğlu Səhliyalı gəlib çıxır, Birinci Qarabağ Müharibəsi illərində Güllücə özünümüdafiə dəstəsinin komandiri Vidadi Orucovun kiçik qardaşı. Özü də silaha sarılıb döyüşüb düşmənlə. Bizi görcək elə ürəkdən "Xoş gəldiniz!" deyir ki, istər-istəməz kövrəlirsən. "Hal-əhval"dan sonra əlini quruyub-saralmış kol-kosluğa uzadıb evimizin yerini göstərir: "O tək

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*

mazdılar. Qohum qohuma, qonşu qonşuya damazlıq heyvan bağışlayardı ki, onun da ağartısı olsun. Kənddə ciddi ictimai nəzarət və qınaq hökm sürərdi, kimliyindən asılı olmayaraq hər kəs bunu hiss edər, bir qəbahət iş tutmaqdan, dilə-dişə düşməkdən çəkinərdi. Birinə qonaq gələndə qonum-qonşu da lütfkarlıq göstərər, dadlı-tamlı təamlarını əsirgəməzdi, qonaq çıxıb gedəndə ev yiyəsi onu əliboş yola salmaz, nəsə bir bəxşeyiş verərdi. Dostluqda möhkəm idilər, illah da, əsgərlik, tələbəlik dostluqlarını ömürlük qoruyub saxlayardılar. Dərslərində seçilib-fərqlənən məktəblilərə, təhsil, elm yollarında uğur qazanan gənclərə "kəndin gələcəyi" ümidi ilə xüsusi maraq göstərilərdi.

Yadıma gəlir ki, hələ o vaxtlar Nüsrət Zeynalov (institutu bitirəndən sonra Sumqayıtın iri sənaye müəssisələrində yüksək vəzifələrdə işlədi), Məhəmmədəli Hüseynov (Ağdam rayon Səhiyyə şöbəsinin baş həkimi vəzifəsində çalışdı), Vəsi Quliyev (rayonun ən yaxşı uşaq həkimlərindən biri kimi tanındı), Köçəri Kərimov (respublikanın səviyyəli hüquqşünaslarından biri kimi tanınmağa başlamışdı ki, ömrü yarıda qırıldı), elə qardaşım Əlfi Mehrəliyev (respublikamızın hər yerindən xəstələr gəlir yanına və çoxu, bilərəkdən ya bilməyərəkdən, professor hesab edir onu), çəpər qonşumuz Vaqif Abdullayev (hüquq-mühafizə orqanlarında ədalətli əməkdaş kimi ad qazandı), Mədət Əyyuboğlu (şair-publisist, Əməkdar jurnalist), Əlişir Hüseynov (onunla həmsöhbət olanlar belə güman edirlər ki, əgər Azərbaycandan bir nəfər Nobel mükafatına layiq görüləcəksə, o da Əlişir olacaq), Zöhrab Zöhrəbov (savadı və insaniyyəti ilə xarici şirkətlərdə böyük hörmət və etimad qazandı), Lətif Hüseynov (Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, hüquq elmləri doktoru, professor), Ədalət Muradov (Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor) və başqa neçə-neçə ümidverən şagirdlər haqqında necə ağızdolusu, fərəhlə danışırdılar. Eləcə də, mənim sinif yoldaşım Tahir Əhmədov



Yurduna, elinə sədaqətli qalanlardan biri də qaçqınlıq illərində Güllücə kənd məktəbinin direktoru işləmiş Vaqif Abdullayevdir. Bizdən yuxarıda, yol kənarındakı xarabalıq onların evidir, bir zamanlar mən bu evdə çay içib, çörək kəsmişəm. Özü də Novruz bayramında, çillə axşamı. Vaqif əvvəldən təşkilatçı idi, məhlə uşaqlarını həyətlərindəki boş otağa yığmışdı ki, çillə çıxardaq. Çıxartdıq da. Gecəni yatmadıq, qaranlıqda qapı-qapı gəzib papaq atdıq, papağımıza qoyulan bayramlıq payını bir süfrədə bölüşdük, aşımızı yedik, şənləndik, sübh tezdən hələ hava işıqlaşmamış Çaylaq bağının başında tonqalımızı çatdıq, İlxıçı çayının buzunu sındırıb suyunda çimdik... Həmin axşam heç yadımdan çıxmır, həm də ona görə ki, papaq atdığım evin sahibi - sinif yoldaşım Elmiranın atası rəhmətlik Cəlal kişi məni "yaxaladı". Tutub içəri apardı, bayram süfrəsində əyləşdirdi. Süfrədə, yalan olmasın, bəlkə, quş südü də vardı. Yediyimi yedim, yemədiyimi də papağıma doldurub məni yola saldılar. Əlbəttə, Novruzda papaqatdı ənənəsinə görə, bu, uşaqlar demiş, "kodan deyil"di, məni görüb tanımışdılar...

Bir dəfə bir dostumdan anasını soruşdum, "Yaşlı adamdır də, gah ağrıyır, gah düzəlir" dedi. Bilirdim ki, anası yü-

razılaşır və deyir ki, hə, filankəs yerdən ağacı götürüb filankəsi vurdu. Aradan bir qədər keçmiş məhkəmə qurulur. Növbə yenə hal şahidinə çatır və onun qol çəkib təsdiqlədiyi yazılı ifadəni oxuyurlar. Ağsaqqal qayıdır ki, yoldaş hakim, orda səhv yazılıb, mən "vurdu" sözü deməmişəm. Hakim soruşur: "Bəs nə demisən?" Cavab verir ki, mən demişəm ki, ağacı götürüb durdu. Bu dəfə prokuror dillənir: "A kişi, camaatı dolamısan?!" Cavab verir: "Allah eləməsin, o vaxt hamı hirsli idi, sözü də düz eşidib yazmayıblar, indi hamının hirsi soyuyub, barışıq vaxtıdı, qoy səhvlərini düzəltsinlər." Bu sözə hamı gülüşür, prokuror da gülür.

Günəşli havalarda Rəhimin çayxanasının tinində əyləşib olub-keçənlərdən söhbət etmək ağsaqqalların, kənd poçtxanası ilə klubun arasındakı yolun dirsəyində toplaşıb iş-güc qayğılarını bölüşmək isə cavanların vərdişinə çevrilmişdi. Gənclər tez-tez kəndin ayağındakı futbol meydançasında cəmləşər, yarışlar keçirərdilər. Nərd, şahmat həvəskarları klubun həyətində, yamyaşıl çəmənlikdə nərdaxta, şahmat oynayardılar. Mən sakitcə bir kənarda dayanıb ağsaqqal söhbətinə qulaq asmağı xoşlayardım, aptek Sultanla, poçt Rüstəmlə, Nağı kişi ilə, Qara kişi ilə şahmat yarışlarına qoşulardım. Obamızın loğmanı həkim Hüseyn, rus dilini mükəmməl bilən poçt İbrahim və başqaları da hərdən vaxt tağıb bu yarışlara qoşulardı. İndi viranəliklər arasından keçdikcə ağsaqqallarımızın nurani siması gözlərim qarşısında canlanır, feldşer İdrisin bəxtəvərlik gülüşünü, poçt Rüstəmin cingiltili səsini eşidirəm. Sınıqçı Süleyman kişinin ixtiyar yaşında incəlmiş barmaqlarının şəfaverici təmasını hiss edirəm - gücünü, qüvvəsini itirmiş o heysiz qoca çıxıq, çatlaq sümükləri necə məharətlə, heç adamın ruhunu da incitmədən yerbəyer edər, sağaldardı. Hər qarşıma çıxanda həkim Hüseynin ayaq saxlayıb, kimyadan, biologiyadan verdiyi sualların cavabını düşünürəm... Hamısı haqq dünyasına qovuşub. Neyləməli, bir yandan boşalıb, bir yandan dolan dünyadı...

sütunu qalan sizin evdi. Gedin, qorxmayın, hər yan minadan təmizlənib " - deyir və tez də ardımızca xəbərdarlıq edir: "Amma ayağınızın altına diqqətlə baxın ki, məftillərə ilişməyəsiz. Gürzə də çoxalıb yaman..."

Bu da təkcə bir sütunu qalmış evimiz. Heç nə, bir qalaq daş yığını. Amma ətrafdakı nişanələrə - bulaq yerinin kafel qırıqlarına, çardaq yerinin durba kəsiklərinə, evimizə bitişik nənə-baba evinin salamat qalmış milli ornamentli hörgü bəzəklərinə görə tanıyırıq.

İstinad nöqtəsi kəndin "xəritəsi"ni görməyə kömək edir. Sağ tərəfdəki qonşu evləri - Həsən əminin, İsgəndərin evlərini də müəyyənləşdirə bilirik. Mən romanlarımdakı obraz yaradıcılığında 3-4 yanıbalalı camışı təkbaşına ram edən, sağan, yemləyən, naxıra qoşan Sürəyya xalanın, çiynində tüfəng gecənin bir aləmində inəklərini xama aparan, əri Rza kişinin saxladığı arılara qənim kəsilən bəzəkli qurşaqlını sərrast atəşlə ovlayan Təbriz xalanın həm natural cizgilərindən, həm də insani keyfiyyətlərindən təsirlənib istifadə etmişəm. Allah hamısına rəhmət eləsin!

Daş qalaqları arasında vurnuxa-vurnuxa əzizlərimi yada salıram. Nənəm sofuxasiyyət adam idi, istəməzdi kimsə onun istifadə etdiyi qab-qacağa əl vursun, əl dəymiş qab-qacağı mütləq yaxşı-yaxşı yumalı idi. Namaz vaxtı gələndə evinə çəkilib namaz qılardı. Mən isə dəcəl idim, ətrafında atılıb-düşər, hətta qarşısınndakı möhürü götürərdim. Nənəm namaz üstündə olduğundan yerindən tərpənməz, elə əllərini qaldırıb "Allahu əkbər! - Allahu əkbər!" deyərdi. İpək kimi xasiyyəti vardı, heç vaxt nəvələrinə acıqlanmazdı. Səssiz, şirin gülüşü şox xoşuma gəlirdi... Anamı heç vaxt bekar görmədim, bütün günü iş-güc əlində əsir-yesir olardı. Gah toyuq-cücəni səsləyib dən səpər, gah xəmir yoğurar, təndirdə çörək yapar, gah paltar yuyar, gah xörək bişirər, gah məktəbə dərs deməyə yollanar, axşam hava qaralanda isə naxırdan qayıtmış inəyimizi sağmağa başlayardı.

*(Davamı 4-cü səhifədə)*

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

*(Əvvəli 3-cü səhifədə)*

"Qaragöz, Qaragöz, ağıllı inəyim" - deyə mehriban səslə eydirirərdi ki, təpik vurub vedrəni aşırmasın. Anam Goranboy rayonunun Qızılhacılı kəndindən idi. Ali təhsilli kimya-biologiya müəllimi kimi Güllücəyə təyinatla göndərmişdilər. Bir ara məktəb direktoru da oldu. Beş uşaq, iki də özləri, bu boyda külfətin işlərini təkbaşına necə görüb çatdıra bilirdi, bu, hələ də mənə çatmır. Baxmayaraq ki, burdan Qızılhacılıya 60-70 kilometr ancaq olardı, yorulub-əldən düşəndə "Vay, qərib canım" - deyərdi. O, təpədən dırnağa qədər milli ziyalı idi. Hərdən öz yurdundan ötrü darıxsa da, Güllücənin də havasını götürmüş, camaatına qaynayıb qarışmışdı.

Atamın yaxşı bağbanlığı vardı, həyətyanı sahədə seçmə meyvə ağacları əkmişdi. Yalan olmasın, ərik ağacları vardı, bəlkə 1 ton məhsul verərdi - biri bir ovucluq, ağappaq, şipşirin əriklər. Bir qoz ağacından bir meşok qoz çırpardıq - nazikqabıq, iriləpəli, yağlı, dadlı qozlar. Alması, armudu, gülöyşə narı, xurması, ənciri, gilası, əzgili ... də öz yerində. Qohum-qonşu, kim istədi gəlib yığıb, vedrəsini doldurub aparardı. Biz də yediyimizi yeyərdik, qalanı yerə tökülərdi. Müəllim ailəsi idik, bazar, alver bilməzdik. İndi o həyət də bomboşdu, qupqurudu, qucağasığmaz tut ağaclarının heç kötüyündən də əsər-əlamət qalmayıb. Bu cənnət guşəni cəhənnəmə çevirib ermənilər...

Mahal kişinin prototipi Əli müəllim bu torpaqla nəfəs alırdı. Bilənlər bilir, ona bir ətək pul versən də, yerindən-yurdundan ayrılmazdı. Coğrafiya müəllimi idi, əlindəki çubuğu xəritə, ya da qlobus üzərində gəzdirə-gəzdirə dünyanı tanıdardı bizə. Bu gün də əminəm mən, əgər ona: "O qlobusu fırlat, çubuğunu dünyanın hansı nöqtəsinə qoysan, orada cah-cəlal quracağıq sənə!" - desələr, yenə Azərbaycanımızın üstünə qayıdıb: "Güllücə buradadır, ora bəsimdir" - deyərdi. Bakı Dövlət Universitetinin coğrafiya fakültəsini bitirəndən az sonra, akademik Budaq Budaqov arxasınca məktub göndərib Bakıya - elmlə məşğul olmağa dəvət emişdi. Getməmişdi və sonradan onu qınayan qohum-qardaşa "Mən buraları atıb gedə bilməzdimt" - deyirdi. İndi düşünürəm ki, siqaret çəkmək, içki içmək kimi zərərli vərdişlərdən uzaq olan, ömründə dava-dərman atmayan, bir dəfə də olsun iynə vurdurmayan, heç xəstələnib-ağrıması halları da yadıma gəlməyən və yüzü keçəcəyinə tamamilə əmin olduğum bu buz baltası kimi möhkəm adan niyə həyatdan tez getdi? Ancaq və ancaq yurd-torpaq həsrəti yıxdı onu, için-için qovurdu, saatbasaat səbrini kəsdi, dözümünü üzdü. Mahal kişi demiş, torpaq dərdi bütün dərdlərdən ağır olurmuş. Xoşbəxt o adamdır ki, əcəli çatanda öz yurdunda ölür, orada dəfn olunur...Amma tale Bakıda bir gün qala bilməyən atamı əbədilik Bakı torpağına qismət elədi...

Atamın yurdcanlığı övladlarına da təsir etmişdi. Qardaşım Əlfi həkim ermənilərin hücumlarının şiddətləndiyi bir vaxtda mərkəzi yolun kənarında ev tikdirməyə başlamışdı. Bir tərəfdən, düşmənin atdığı qrad, top, raket kəndin yollarını, evlərini dağıdır, o biri tərəfdən həkimin tikdirdiyi ev hörgü-hörgü ucalırdı. Hər gün usta Salman sübh tezdən palçığını tutub daş hörür, yoldan keçənlər tikili sahibinin yurd sevgisinə kövrəlir, "Yox, ölsək də bu torpaqdan heç yana gedəsi deyilik!" - qərarlarını qətiləşdirirdilər. İndi həmin tikilini axtarırıq, həyət yeri dümdüzdü, elə bil burada heç tikili-filan olmayıb.

On il təhsil aldığımız məktəbin yolunu təyin etməyə çalışırıq. İlxıçılar kəndinə dönən yolayrıcından kəndin qəbirstanlığı görünür, məktəbə yol onun yanından keçirdi. Bir az da qabağa gedəndə, qəbirstanlığın baş tərəfində, Güllücə kənd orta məktəbinin də uçurulmuş divarları görünür. Bir vaxtlar ətrafdakı səkkiz parakəndin uşaqları oxuyurdu bu məktəbdə. Həmin kəndlərdəki məktəblər dördillik və səkkizillik olduğundan şagirdləri təhsillərini gəlib bizim məktəbdə davam etdirərdilər və mən kolanılı Elbrus Rüstəmovla da burada tanış olub dostlaşmışdım - harada yaşayıb hansı vəzifədə çalışmağımızdan asılı olmayaraq bir-birimizə qarşı sədaqətli qaldıq və günü bu gün də yolum bu tərəflərə düşəndə Tərtər qəbirstanlığına dönüb onun qəbrini ziyarət edirəm.

Yaraşıqlı, şöhrətli Güllücə məktəbinin indi dağıdılmış qəfəsəsi qalıb... Yuxarı tərəfində, yaxınlıqdan keçən İlxıçı çayının kənarında əkilmiş, başı buludlara dəyən quaqlar da görünmür... Uşaqlar böyük tənəffüsdə müəllimlərin gözündən yayınıb o nəhəng ağacların altına yığışar, səs-səsə verib mahnı, muğam oxuyardılar. Şirin xatirələr kimi, gözəl səs də, şirin avaz da yaddaşdan silinmir, mən ustad sənətkarımız Səbuhi İbadovun atası Tahir İbadovun:

Məni dövri-fələk qoymuş
Biyabanlarda avarə,
Həbibim gəl, təbibim gəl,
Gəl bu dərdə edək çarə.

- deyə necə şövqlə, yanıqlı-yanıqlı oxumasını xatırlayıram. Və düşünürəm ki, sanki bu sözlər həm də keçmişdə başımıza gələnləri xatırladırmış, yenidən düşə biləcəyimiz çarəsiz vəziyyətə işarə edirmiş... Onu da düşünürəm ki, gözəl səs, şirin avaz kimi, pis xislət, yırtıcı xüsusiyyət də genlə keçir, bu səbəbdən, erməni heç vaxt düzələn deyil, bu tayfanın qanı xarabdır.

Qəlbimdə özlərinə əbədi olaraq yer eləmiş əziz müəllimlərimi xatırlayıram. Budur, məktəbin həyətində Mamed müəllimlə qarşılaşıram, o, ədəbiyyat müəllimidir, mən də bu fənni yaxşı oxuyuram, yəqin ona görə mehribancasına salam verir, mən də salamını alıram. Az keçmiş yenidən, bu dəfə məktəbin zalında qabaq-qabağa gəlirik. Yenə salam verir. Mən, indicə salamlaşdığımızı və onun bunu unutduğunu düşünüb, sakitcə keçib getmək istəyirəm. Arxamca səsini eşidirəm: "Düz eliyirsən, adam gündə neçə dəfə salamlaşar."

"İndi zəng vurulacaq, hara gedirsən?" - direktor müvini Murtuza müəllimin səsidir, yubanıb bayıra çıxmaq istəyən şagirdə xəbərdarlıq edir, o isə dərhal, dabanı üstə dönüb geri qayıdır. Murtuza müəllimin əlində həmişə çubuq olardı, amma onun kimi isə vurmasının şahidi olmadım, uşaqlar da ona çubuğuna görə yox, təmkinli, qayğıkeş münasibətinə görə hörmət edərdilər.

Bu da biologiya müəllimimiz Vahid müəllimdir, üzünü dərsdə səs salan şagirdə tutub deyir: "Gülürsən, hə? Gül, gül! Qoy süni zülal tapsınlar, sənin kimlərdən bir qoşun istehsal edəcəklər, hamınız bir yerdə gülərsiniz". Müəllim düz deyirmiş, heç yarım əsr keçmədi, süni zülal tapmasalar da, süni intellekt yaratmağı bacardılar, özü də gülməyi yaxşı bacarırlar.

Siriş müəllimin ciddi sifəti canlanır gözlərim qarşısında. Bir dəfə ev tapşırığını yerinə yetirə bilmədiyim üçün mənə "donuzotaran" demişdi. Doğrudur, mən riyaziyyatı yaxşı qavraya bilmirdim, amma elə həmin dərsdəcə məlum oldu ki, ev tapşırığını heç kəs yerinə yetirməyib və heç Siriş müəllimin özü də o tərs tənliyi həll edə bilmədi. Elə bil şeytan ağlımı əlimdən aldı, qarşımda açılmış sinif jurnalında (mən sinif nümayəndəsi kimi qabaq cərgədə, müəllimə məxsus yazı masasının düz qarşısında əyləşirdim), fənn müəlliminin adının qarşısında tərsinə bir "2" yazdım. Sonradan məlum oldu ki, həmin tənliyin cavabı səhv yazılıb dərslikdə. Siriş müəllim isə nə mənim qələtimi üzümə vurdu, nə də "2"-ni pozdu. Beləliklə, özüm yazdığımı peşimançılıq çəkə-çəkə, xəlvət-xəlvət özüm də pozmağa məcbur oldum.

Riyaziyyat müəllimi Cəlal Qarayevin yaxşı əl qabiliyyəti də vardı, məktəbin rəsm-lövhə işləri onun əlindən çıxmalıydı. Ədəbiyyat müəllimi Bəylər Qədimov sinədəftər idi, bir dəfə bizi avtobusla Gəncəyə ekskursiyaya - Nizami Gəncəvinin məqbərəsinə aparırdı. Maşın mərkəzi şose yoluna çıxan kimi, dedi: "Zahid, qarmonunu qabından çıxart çal, qoy şənlik olsun!" Zahid çalmadı. (Zahid məktəb direktoru Lənkəran müəllimin oğlu idi, yaxşı qarmon çalmağı bacardığı kimi, yaxşı futbol oynamağı da vardı). Bəylər müəllim bir də üz vurdu, Zahid eşitmədi, tərsliyi tutmuşdu elə bil. Onda özü başladı. Səməd Vurğunun iki poemasını dalbadal əzbər dedi.

Hə, bizim müəllimlərimiz yalnız ixtisasları üzrə fənn biliklərini öyrətməklə kifayətlənməyən, insanlıq dərsi keçən, davranışları, danışıqları ilə şəxsi nümunə göstərən əsl pedaqoqlar idilər və mən sonradan onlarla bağlı xatirələrimdən istifadə edib dəyərli hekayələr yazdım. Məsələn, 1991-ci ildə "Azərbaycan müəllimi" qəzetinin 4 yanvar tarixli sayında dərc etdirdiyim "Qiymət" hekayəsinin süjeti və məzmunu Siriş müəllimlə mənim aramda olan əhvalatdan götürülmüşdür.

Müəllimlərimizin çoxu, elə Əli müəllim kimi, yurd dərdinə tab gətirməyib bu fani dünyadan küsüb getdi. İpək xasiyyətli şair-müəllim Hüseyn Güllücəlinin, ağır oturub batman gələn tarixçi Əkbər Əsədovun, ürəyi həyata, insanlara sevgi ilə çırpınan aktyor-müəllim Nəbi Zeynalovun dünyalarını dəyişəndə nə yaşı vardı ki... Neyləməli, bu da bir tale imiş. Cəfər Cabbarlı demiş: *"Ölmək, o geniş körpüdən hər kəs keçəcəkdir. Bir badə ki, ondan bütün aləm içəcəkdir. Bir süslü çiçək, sonda saralmış quru yarpaq. İnsan nədir? Həm əvvəli torpaq, sonu torpaq".* Nəzərlərimi "məktəbdən" çəkib, yenidən qəbirstanlığa yönəldirəm. Amma məktəb tərəfdən kiminsə göz altından mənə baxdığını hiss edirəm. Tanıyıram, kəndimizdəki yeganə erməni - rus dili müəllimi Sərdaryan müəllimdir. Paltarı kimi, danışığı da ütülüdür. Mən onu heç vaxt adamların gözünün içinə şax bağdığını görmədim. Hiss edərdim ki, məktəbdəki bəzi müəllimlərin, o cümlədən atamın xoşu gəlməzdi ondan. Hətta bir dəfə Siriş müəllimin ona barmaq silkələyib: "Səni yaxşı tanıyıram, özünü yığışdır!" -deyə hədələdiyini görmüşdüm. Bəlkə ona görə ki, dərsdə bir kəlmə də olsa rus dilində danışmaz, bu fənni düz-əməlli tədris etməzdi, az qala hamımızı kor qoymuşdu. Ancaq ya şeir əzbərlətdirər, ya da qol-qabırğasını sındıra-sındıra bizm dildə danışıb uşaqlarla məzə qılardı. Müdiriyyət də cəsarət göstərib onun barəsində bir tədbir görməzdi, o vaxt zəmanə belə idi, erməniyə toxunmaq odla oynamaq kimi bir şeydi. Əksinə, kənddə qonaqdı, qəribdi deyə hamı hörmət qoyar, bayram süfrəsinə dəvət edər, yuxarı başda əyləşdirərdilər. O vaxt bizim ermənilərin azərbaycanlılara qarşı tarixi düşmənçiliyi barədə adi təsəvvürümüz də yox idi. Erməniləri sonradan tanıdıq və mən əmin oldum ki, Sərdaryan yüz faiz daşnak imiş və Allah bilir, əlaltından nələr edirmiş. Mən ermənilərin namərdcəsinə qəfil hücumunda və törətdikləri faciələrdə Sərdaryan kimilərin rolunu sonradan yazdığım "Doxsanıncı illər" romanımda poçtalyon Samvel obrazı vasitəsilə ifşa etməyə çalışdım....

Qəbirstanlığın girəcəyində Güllücə döyüşlərində həlak olmuş insanların xatirəsinə iki dəmir lövhə quraşdırılıb, birindən yerli şəhidlərin, digərindən kəndin müdafiəsində iştirak etmiş və canını fəda etmiş əsgərlərimizin şəkli asılıb. Hamısı bığ yeri yenicə tərləmiş gənclərdir, hamısının gözlərində həyat eşqinin parıltısı var, hamısının sir-sifət cizgilərindən qətiyyət və mətanət ifadələri oxunur.

Təxminən 60 yaşında bir kişi (sorğusualdan sonra tanıdım ki, rəhmətlik çilingər Şirinin oğlu Etiqaddır), yanında bir qadın və uşaq bir məzarın ətrafını təmizləyir, üzərinə gül düzürlər. "Güllücəlilər qəbirstanlığa tez-tez gəlir, dünyasını dəyişmiş əzizlərini ziyarət edir, dağıdılmış qəbirləri səliqə-sahmana salırlar." - deyir Şirinoğlu. Və əlavə edir ki, gördüyünüz xatirə lövhələrinin hazırlanıb qurulması Güllücə uğrunda gedən döyüşlərdə şəhid olmuş döyüşçülərin adlarının əbədiləşdirilməsi yolunda atılan ilk addımdır. Rəhmətlik mantyor Nərimanın oğlu Əlibaba Nəsibovun, kənd xəstəxanasında sürücü işləmiş Hüseyn kişinin oğlu Rəşad Mirzəyevin, Murtuza müəllimin oğlu Oqtay Mustafayevin və Cəlal müəllimin oğlu Cəlil Qarayevin şəxsi təşəbbüs və əməyinin nəticəsidir.

Qəbirstanlığın qapısından içəri girib, dağıdılmış qəbir yerləri arasından ehtiyatla keçə-keçə əzizlərimizin qəbirlərini axtarırıq. Yox, yenə cəhdimiz nəticəsiz qalır. Torpaqlarımız işğaldan azad ediləndən sonra üstü yenidən götürülmüş və mərhumun adı yazılmış qəbirlərdən savayı, əksəriyyətini tanımaq olmur... Hamısı dağıdılıb, baş daşları sındırılıb, yazıları pozulub, məzar yerləri qazılıb, cəsədlərin sümükləri ətrafa səpələnib. Ürək lazımdır gördüklərinə tab gətirə...

Etiqad deyir ki, bu namərdlər Birinci Qarabağ müharibəsində döyüşüb şəhid olmuş Güllücə özünümüdafiə dəstəsi üzvlərinin də məzarlarını dağıtmışdılar, yenidən səliqə-sahmana salınıb. Mən həyatdan nakam getmiş igidlərimizin məzarlarına fəxriyyət və təəssüf hissləri ilə baxıram: Kazım Məmmədovun, Elşən Əliyevin, Azər Aslanovun, Sulduz Nəsibovun... Ümumilikdə 12 nəfərdirlər. Hamısına Allahdan rəhmət diləyirəm. Onlardan biri qonşum idi, Səxavətin oğlu Elşəni deyirəm, mən sonuncu dəfə kəndə baş çəkəndə onu məhəllədə, çiynində avtomat silah harasa tələsən görmüşdüm. Onda ayaq saxlayıb hal-əhval tutası vaxt deyildi: qrad zərbələrindən yer ayağımızın altında titrəyirdi, toyuq-cücənin qaqqıltısından qulaq tutulurdu, uşaqların qışqırtısı, böyüklərin hay-küyü, heyvanların tükürpədən səsləri bir birinə qarışmışdı, itlər kömək istəyirmiş kimi zingildəyə-zingildəyə adamların arasında dolaşır, paçalarının arasına soxulurdular. Elşən orta məktəbi təzəcə bitirmiş, könüllü olaraq döyüşlərə qatılmışdı. Kəndin ilk şəhidlərindən oldu.

İnşallah, tezliklə bizim kəndin qəbirstanlığı da səliqə-sahmana salınar, gül-çiçək qoxuyar, - deyə fikrimdən keçirirəm. Belə bir söz var: Bir kəndin adamlarını tanımaq istəyirsənsə, yoluna, qəbirstanlığına və bazarına diqqət yetir...

**2025**